# Şuşa əyilmədi, sınmadı, bizi gözləyirdi və müzəffər xalq kimi gəldik



## Şuşanın dağları

Hər dəfə təbiət haqqında düşünəndə hər qarışında uşaqlığımızın keçdiyi yurd yerləri gözlərimiz qarşısında canlanır, dizimizi yerə qoyub gözündən su içdiyimiz buz bulaqlar, şehli çəmənlər, qüdrətdən səngərli, qalalı dağlar, dağların belinə kəmər kimi dolanan cığırlar yadımıza düşürdü, xatirələr qəlbimizdə şimşək kimi çaxırdı. Bir vaxtlar sehrinə, ününə həsrət qaldığımız yurd yerlərinə indi qalib xalq kimi qayıtmağımız ürəkləri cuşa gətirən saz havası, ney səsi, dağ havası, yurd sevgisi ruhumuzu təzələyir. Bir vaxtlar yanıqlı səslə oxunan Şuşanın dağları başı dumanlı fəryadı indi sevincə, fərəhə, qürura, fəxarətə, yurda qayıdışa çevrilib. Daha bu dağları qara, qəddar duman bürümür, indi bu zirvələrdən günəş boylanır, şəfəqləri aləmi bürüyür. Dağları, dərələri, düzləri bayquş xisləti ilə murdarlayan hayları qanına qəltan edən, kafir caynaqlarını Şuşanın qəlbindən, təbiətindən qoparıb atan, döyüşlərdə işğalçının belini qıran oğulların şücaəti ilə düşmən məhv edildi.

Ana təbiət bu torpaqdan heç nəyi əsirgəməyib, yeraltı sərvətləri tükənməz xəzinə olduğu kimi, yerüstü sərvətləri də canlı və zəngin təbiət muzeyidir. Şuşada ən yüksək zirvə 2725 metr hündürlüyündə olan Qarabağ dağ silsiləsinə aid Böyük Kirs dağıdır. Keçəldağ aşırımı da Şuşa rayonunun inzibati ərazisinə daxildir. Burada müxtəlif növ bitki və ağaclar, Turşsu və Şırlan kimi keyfiyyətli mineral su mənbələri var. Şuşa sıldırım qayaların üstündə bir qala, Azərbaycanın qədim şəhəridir, havası, suyu, təbiəti bənzərsizdir, adam burada başqa bir ovqata köklənir, sanki qəlb təlatümü, ruh titrəyişi baş verir, ucalıq, yüksəklik insanı bir boy ucaldır, ona xoş duyğular bəxş edir. Qədim Qarqar çayı bu yerlərdən axıb keçir. Şuşanın şimal-şərqində Qarabağ dağ silsiləsinin yamacında yerləşən Çaxmaq meşəsi də bu diyarın nadir gözəlliyi hesab olunur. Kirs, Şırlan, Armudlu, Əylis, Çınqıllı, Quşçular, Malıbəyli meşələri, Zarıslı və Xəlfəli çayları boyu uzanıb gedən, dağların ətəklərinə qədər geniş bir sahəni əhatə edən ormanlar bu yerlərin əzəmətini nəğmə, bayatı kimi insanın varlığına hopdurur. Şuşa havasının təmizliyi, saflığı və müalicə əhəmiyyəti baxımından kurort şəhəri kimi tanınıb. Bu baxımdan, nəinki Azərbaycanda, onun hüdudlarından kənarda da Şuşa öz səfalı yerlərinə, istirahət guşələrinə görə məşhur olub. Keçmiş sovetlər birliyinin ən ucqar yerlərindən dünyaşöhrətli kurort şəhəri kimi məşhur olan Şuşaya gələn turistlərin ən sevimli məkanlarından biri də əvəzsiz və füsunkar təbiətə malik əfsanəvi Cıdır düzü idi. Cıdır düzünün qərb tərəfi bir-birinin arxasında yerləşən üç hündürlükdən ibarətdir. Bu təpələrə "Üçmıx" adı verilib. Əhalinin və turistlərin əsas istirahət yerlərindən olan Cıdır düzündə XX əsrin 80-ci illərində may ayında "Xarıbülbül" beynəlxalq mahnı festivalı keçirilirdi. Şuşa dağlarında xüsusi gözəlliyi ilə seçilən, nakam sevginin rəmzi hesab olunan "Xarıbülbül" adlı çiçək bitir. May ayının axırları, iyun aylarında çiçəkləyən bu nadir çiçəyə ən çox Cıdır düzündə, Topxana meşəsində, Üçmıxın zirvəsində, dağ yamaclarında, çay kənarlarında rast gəlinir. Bu endemik çiçək həm gözəl, həm də müalicəvidir. Xarıbülbül çiçəyi indi Zəfərin rəmzidir!

## Şuşa döyüşləri

Sıldırım qayaların üstündə, dağların sinəsində şüşə kimi bərq vuran, uca yaradanın yer üzünə bir ərməğanı, Qarabağın incisi, Azərbaycan təbiətinin möcüzəsi Şuşa şəhərinin taleyi çox keşməkeşli olub, dəfələrlə yadellilərin hücumlarına məruz qalıb, işğal altına düşüb, əcdadlarımızın ruhu hopmuş bu yurd yeri bütün zərbələrə baxmayaraq, təbii relyefinə və qəlbimizdəki yerinə görə ən ucalıqda, mənən isə zirvədə yerləşir.

Şuşa döyüşləri İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnən ən uğurlu döyüş əməliyyatlardan biridir. Döyüşlər zamanı Azərbaycan Ordusunun bölmələri sıx meşələri, qayalıqları, keçilməz yarğanları və çətin dağ keçidlərini aşaraq Şuşaya istiqamət götürüb. Belə ki, noyabrın 7-də ordumuz şəhərin yerləşdiyi sıldırım qayalıqlara dırmaşaraq yüngül silah-sursat ilə düşmənin gözləmədiyi istiqamətdən Şuşaya daxil olub. Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələri şəhərə bir çox istiqamətdən yaxınlaşmaq üçün yüz nəfərlik qruplara bölünüb. Minarələri buludlara baş çəkən, Qafqazın konservatoriyası, tariximizin bir parçası, havası can dərmanı, suyu diriliş cövhəri olan Şuşa qədim qala divarları ilə düşmənin başına od ələyən igidlərimizi qorudu, onları doğma övladı kimi öz sinəsinə sıxdı, ölməz ruhu ilə yağılara meydan oxudu. Şuşanın işğaldan azad edilməsi Vətən müharibəsinin və tariximizin ən şərəfli səhifəsidir. Cəsarətlə demək olar ki, Şuşa tarixin və təbiətin yaratdığı bir abidə, canlı muzey, dünyada bənzəri olmayan yaşayış məskənidir. İşğal müddətində düşmən bu şəhəri nə qədər söküb dağıtsa da, onun milli koloritini yox etməyə çalışsa da, daş kitabələri özününküləşdirməyə cəhd etsə də ona gücü çatmadı, qədim qalanın milli ruhunu yox edə bilmədi. Düşmən Şuşada ən ağır məğlubiyyətə uğradı, işğalçılar darmadağın edildi.

Döyüşlər zamanı Şuşaya Ermənistan tərəfindən "İsgəndər" ballistik raketləri atıldı. Raketin hədəfi isə azərbaycanlı hərbçilər oldu. Hayların məğlub ordusunun salamat qalan əsgərləri deyirdilər ki, 1500 erməni əsgəri 5-6 Azərbaycan əsgərinin qarşısından qaçdı. Bəli, qaçırdıq. Çünki qaçmasaydıq ölümümüz mütləq idi. Şuşa döyüşləri daha dəhşətliydi. Biz onları yoldan gözləyirdik, amma bir də ayıldıq ki, onlar artıq canavar sürüyə girən kimi içimizə giriblər, həm də yalın əllə. Çox dəhşətli bir döyüş idi. Şuşaya ilk daxil olan xüsusi təyinatlıların döyüşçüləri danışırlar ki, qədim qalanın azad edilməsində təbiət də, qala divarları da, göy üzündəki topa buludlar da bizi düşmən gülləsindən qoruyurdu, bizimlə birgə təbiət də döyüşürdü. Hər döyüşçü Şuşanın azad edilməsində iştirak etməyi arzulayırdı. Daşaltıdan Şuşaya bir döyüşlük yol var idi. Bu döyüşün ağır döyüş olacağını bilirdik. Bu döyüşü də qələbə ilə başa çatdıracağımıza əmin idik. Mövqe qələbələri, Daşaltının ermənilərdən təmizlənməsi döyüşçülərimizin döyüş əzmini, qələbə ruhunu kükrətmişdi. Şuşa bütün əzəmətiylə görünürdü. Şuşa uğrunda gedən döyüşlərdən adi emosiya ilə danışmaq mümkün deyil. Bu döyüş dünya müharibələri tarixində heç bir döyüşlə müqayisə oluna bilməz.

Şuşa döyüşləri haqqında Rusiya mətbuatında belə bir informasiya dərc olunmuşdu: - Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu, demək çətindir. Dağ yuxarı, şəhidi çiynində, döyüşə-döyüşə qan-tər içində qalxırdı Azərbaycan Ordusu. Nə yaralısını, nə şəhidini əldən buraxmırdı. Nəfəs almadan Şuşaya çıxdılar. 2021-ci ilin iyul ayında Müasir Müharibə İnstitutunun saytında institutun şəhər müharibəsi araşdırmalarının rəhbəri, MMİ-nin Şəhər Müharibəsi Layihəsinin həmmüəllifi Con Spenser və Seton Hall Universitetinin Diplomatiya və Beynəlxalq Münasibətlər Məktəbində beynəlxalq əlaqələr üzrə bakalavr təhsili alan Harşana Qurhunun müəllifləri olduğu "Şuşa uğrunda döyüş və 2020-ci il Dağlıq Qarabağ müharibəsinin qaçırılan dərsləri" adlı məqalədə deyilir ki, Azərbaycan qüvvələri Şuşaya daxil oldu. Şəhərə daxil olduqdan sonra ermənilərin gücləndirilməsinin və ya təchiz edilməsinin qarşısını almaq üçün şəhərin ətrafında əlavə bloklayıcı mövqelər və pusqu yerləri qurdular. Digər əsgərlər də uğurla Şuşanın cənubundakı kənd olan Daşaltını əhatəyə aldılar və dərhal Şuşaya gedən əsas yola çıxışı təmin etdilər. Azərbaycan qüvvələri şəhərə girməyə başladıqda, müdafiə olunan erməniləri yaxın məsafədən ağır küçə döyüşlərinə cəlb etdilər. Şəhərdəki erməni qüvvələrinin zirehli texnika və ağır toplarla birlikdə iki mindən çox əsgərdən ibarət olduğu bildirilirdi. Noyabrın 7-də ərazini dumanlı hava bürüdü. Bu, Azərbaycan qüvvələrinin müharibə boyu onlara bu cür üstünlük qazandıran havadan müşahidə və zərbə qurğularının istifadəsini əhəmiyyətli dərəcədə məhdudlaşdırdı. Buna baxmayaraq, küçə döyüşləri şiddətlə davam edirdi.

Bəli, Müzəffər Azərbaycan Ordusunun xüsusi təyinatlıları erməni qoşunlarını məhv edərək noyabrın 8-də Şuşa şəhərini düşməndən azad ediblər.

## Sözardı

Şanlı qələbə ilə başa çatan İkinci Qarabağ müharibəsi hərb tarixinin və zamanın fövqündə dayanır, çünki cəmi 44 günə Ermənistan ordusu darmadağın edildi, ermənilərin müdafiə xətləri qalib ordunun ayaqları altında qaldı, işğal altındakı torpaqlarımız azad edildi. Dost da, düşmən də modern, peşəkar, cəsur, qəhrəman Azərbaycan Ordusunun qısa müddətdə qazandığı uğurları gördü. Qalib Ali Baş Komandan İlham Əliyevin dəmir iradəsi, fədakarlığı, qəti mövqeyi, siyasət meydanında cəsarətli savaşı, ordusunun hünəri işğala birdəfəlik son qoydu, döyüş səngərlərində ləyaqətimiz və şərəfimiz bərpa edildi. Dörd ildir ki, erməni əsarətindən azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda sözə və gözə sığmayan, düşüncələri aşan böyük dirçəliş dövrü başlanıb. İşğaldan azad edilən ərazilərdə quruculuğun, bərpanın sürəti və miqyası gündən-günə artır, ermənilər tərəfindən viran edilmiş yurd yerlərinin miskin görkəmi laləzara çevrilir, bu yerlərə gözəllik və işıqlı bir həyat qayıdır.

Dörd il keçməsinə baxmayaraq, işğaldan azad edilmiş ərazilərdə mübaliğəsiz demək olar ki, əlli ilin işi görülüb, Böyük Qayıdış toy-bayrama çevrilir, sevinc göz yaşları doğma yurd həsrətinə məlhəm olur, sükunətə və səssizliyə bürünmüş ata-baba yurdları indi gülüşə, fərəhə, qürura, şərəfə qucaq açır. Qarabağın tacı Şuşa tarixi görkəmini saxlamaqla yenidən qurulur, burada həm də modern şəhərsalma elementlərindən geniş istifadə edilir. Dünyanın əksər ölkələrinin Ermənistanın haqsız iddialarını dəstəkləməsinə, onlara maddi və hərbi dəstək verməsinə baxmayaraq, müzəffər Azərbaycan ordusu Vətən müharibəsindəki haqq savaşında qalib gəldi. Düşmənlər otuz ilə yaxın işğal altında qalan torpaqlarımızdan qovuldu, ordusu darmadağın edildi, bədniyyətləri məhv edildi. Prezident İlham Əliyev torpaqlarımızda yaşı iki yüz ildən çox olan separatizm yuvasına, ermənilərin əsassız torpaq iddialarına son qoydu, bu tarixi missiyanı şərəflə yerinə yetirdi. Azərbaycan heç yerdən və heç kimdən kömək gözləmədən öz gücüylə, öz iradəsiylə misli görünməyən quruculuq işlərini sürətlə, keyfiyyətlə, modern üslubda, milli memarlıq ənənələri üzərində aparır və ermənilərin törətdikləri böyük fəlakətin üstündən cəmi dörd il keçməsinə baxmayaraq, minlərlə soydaşımız öz dədə-baba yurdlarına qayıdırlar. Dirçəliş təkcə quruculuq işlərində baş vermir, bu həm də insanların mənəviyyatında, arzularında, gələcək ümidlərində baş verir. Dönməz çağlarımız qayıdır, yanmaz ocaqlarımız alovlanır, heydən düşən ayaqlarımız, nurdan düşən gözlərimiz sevinir...

## Şuşa təkcə şəhər deyil, böyük bir tarixi abidədir

Qəhrəmanlar haqqında danışanda, onların igidliyini təsvir edəndə sanki sözlər də oda-alova bürünür, çox şərəfli bir zirvəyə ucalanların həyat hekayələri həm də tarixin ən qiymətli səhifəsini təşkil edir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun qəhrəmanlığı sayəsində Azərbaycanın qədim, mədəni və böyük strateji əhəmiyyətə malik şəhəri olan Şuşanın işğaldan azad edilməsindən 4 il ötür. Haqqında hələ uzun illər danışılacaq 44 günlük müharibə Azərbaycanın hərbi gücünü göstərdi, bütün dünyaya xalqımızın iradəsini nümayiş etdirdi, qələbəyə və şərəfə qadir bir xalq kimi Zəfər bayramını yaşayırıq. 30 ilə yaxın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini həll etməklə məşğul olan beynəlxalq təşkilatların edə bilmədiklərini Qalib Ali Baş Komandan İlham Əliyev və müzəffər Azərbaycan ordusu cəmi 44 günə həll etdi, Ermənistanın haqsızlığına, işğalına, hərbi təcavüzünə birdəfəlik son qoyuldu. Qələbə heç də asan qazanılmadı, yüzlərlə əsgər və zabitimiz qanı, canı bahasına xalqımıza ağır müsibətlər yaşatmış erməni faşizmini məhv etdi. Qəhrəman oğullarımız Vətənə, bayrağa, dövlətə, xalqa sonsuz sədaqətini nümayiş etdirərək işğaldan azad edilən ərazilərdə üçrəngli bayrağımızı ucaltdılar. Xalqımızın tarixinə qızıl hərflərlə yazılan şanlı qələbə sevincini yaşayırıq. Ağlayan, kədərli gözlərimiz indi sevincdən, qürurdan, fərəhdən parlayır. 28 ildən artıq bizi çiynimizdən aşağı basan, ürəyimizdən daş kimi asılan, kədərli gözlərimizin didəsində özünə yuva quran, qürurumuza və şərəfimizə əskiklik gətirən, erməni işğalı altında inildəyən Şuşa şəhəri rəşadətli Azərbaycan ordusunun misilsiz qəhrəmanlığı sayəsində əsarətdən qurtulub. Şuşa yaradanın yer üzünə bir ərməğanıdır, Azərbaycan musiqisinin, adət-ənənəsinin, tariximizin, mədəniyyətimizin paytaxtıdır, əsrarəngiz, füsunkar gözəlliyi ilə hər kəsi heyran edir. Hər daşı özü boyda bir tarixdir, salnamədir, təbii muzeydir, şüşə kimi qəlbi ilə hər şeydən qəlbidə dayanan yurd yerimizdir Şuşa.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Şuşa haqqında dediyi sözlər yaddaşımıza əbədi yazılıb. Ulu öndər deyib: "Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibi olublar və Qarabağda Azərbaycan torpağının qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur. Şuşa qədim Azərbaycan şəhəridir, həmişə belə olub və əbədi də olacaqdır". Son 29 il ərzində mənfur düşmən nə qədər çalışsa da, Şuşanın ruhunu, görkəmini dəyişdirə bilməyib. Evlər sökülüb, tarixi abidələr sökülüb, məscidlər sökülüb, bulaqlar qurudulub, təbiətə vəhşi münasibət göstərilib, buna baxmayaraq, Şuşa öz milli koloritini saxlaya bilib, onu silməyə düşmənin gücü çatmayıb. 2020-ci il oktyabrın 16-da qardaş Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində aparılan döyüşlər haqqında danışan Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bildirdi ki, istiqamət hər tərəfdir. İşğal edilmiş torpaqların hər bir qarışı bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlərlə müqayisədə eynidir, bərabərdir. Siz də yaxşı bilirsiniz ki, Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir. Qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edib. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar.

## Qədim şəhərin əvvəlki ahəngi özünə qayıdır

Şuşada erməni vəhşiliyinə məruz qalan tarixi, mədəni, dini abidələr yüksək zövqlə, milli memarlıq üslubunda bərpa olunur, əvvəlki görkəminə qaytarılır. İşğaldan azad olunan bütün bölgələrdə olduğu kimi, Şuşada da bu istiqamətdə bərpa işlərinin böyük qismi Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir. Fond tərəfindən bərpa olunan belə binalardan biri milli memarlıq ənənələrini özündə əks etdirən Şirin su hamamıdır. Hamam ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısındadır və tarixi görkəmi qorunub saxlanılmaqla bərpa edilir. Azərbaycan tarını təkmilləşdirən məşhur tarzən Sadıqcanın evi, Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidləri Heydər Əliyev Fondu tərəfindən bərpa olunur. Hər üç məscidin memarı Kərbəlayi Səfixan Qarabağidir və bu məscidlər ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Şuşanı işğal altında saxladıqları dövrdə erməni barbarları bu məscidləri də vandalizmə məruz qoyublar. Şuşadakı mühüm mədəni-tarixi memarlıq abidələrindən olan



Mehmandarovların malikanə kompleksində də bərpa işləri Heydər Əliyev Fondu tərəfindən aparılır. İşğal dövründə ciddi ziyan dəyən, ermənilər tərəfindən dağıntılara məruz qalan malikanə kompleksində mütəxəssislər qiymətləndirmə işləri aparıb, bunun əsasında bərpa işləri icra olunur.

Həmsöhbət olduğumuz şuşalılar bildirdilər ki, çox sevinirik ki, bu gün Heydər Əliyev Fondu tərəfindən digər abidələr kimi Şirin su hamamı da bərpa edilir. Bərpa-quruculuq işlərinə baxıb qürurlanırıq. Ona görə ki, Şuşanın tarixi görkəmi özünə qaytarılır. Buna görə də Prezident İlham Əliyevə, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya minnətdarlığımızı bildiririk. Şuşadakı memarlıq abidələrinin bərpası, şəhərin tarixi görkəminin özünə qaytarılması istiqamətində görülən işlər bütün şuşalılar tərəfindən rəğbətlə qarşılanır. Dünyada yeganə liderdir ki, xalqına verdiyi vədlərin hamısını yerinə yetirə bilir. Yurdumuzun dilbər guşəsi olan Şuşa şəhəri mədəniyyətimizin inkişafında böyük rol oynayıb, görkəmli şəxsiyyətlər yetişdirib, XIX əsrin sonlarında tariximizin incisi "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırılıb. Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin böyük əməyi sayəsində Şuşada peşəkar musiqi təhsilinin bünövrəsi qoyulub. İşğaldan sonra Şuşa türk dünyasının mədəniyyət paytaxtı elan edilib, dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə bu qədim şəhərin Azərbaycan xalqı üçün tarixi əhəmiyyəti, yüksək mədəni- mənəvi dəyəri nəzərə alınaraq 2022-ci il Azərbaycanda "Şuşa İli" elan edildi. Bu münasibətlə Şuşada bir çox mədəni tədbirlər keçirilib. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr həyata keçirilir. Şuşa qədim tariximizin, mədəniyyətimizin yadigarıdır, təbiətin zümrüd tacıdır, musiqi beşiyidir. Mədəniyyət paytaxtımızda tikinti-quruculuq işləri dövlətimizin başçısının tapşırığına uyğun olaraq şəhərin tarixi-memarlıq xüsusiyyətlərinə uyğun aparılır. Düşmən əsarətindən qurtulan Şuşaya yeni ruh, yeni nəfəs gəlir, qədim şəhərin əvvəlki ahəngi özünə qayıdır, torpağı, daşı sevinir, başı göylərə dəyən minarələrdən ucalan azan səsi bütün Qarabağa yayılır.

Dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi və biz müzəffər xalq kimi gəldik. Şəhərdə demək olar ki, qədim evlər sökülüb, tarixi abidələr dağıdılıb, məscidlər uçurulub, bulaqlar qurudulub, təbiətə vəhşi münasibət göstərilib. Ermənilər bu barbarlığı qəsdən, planlı şəkildə törədiblər, öz iyrənc niyyətlərini həyata keçirmək üçün bu şəhəri erməniləşdirməyə cəhd ediblər, bəzi binaların memarlıq üslubunu dəyişiblər. Erməni faşistlərin vəhşiliyi nəticəsində qəddar yaralar alan Şuşa öz milli koloritini saxlaya bilib, onu silməyə düşmənin gücü çatmayıb. Şuşa qədim tariximizin, mədəniyyətimizin yadigarıdır, ana təbiətin zümrüd tacıdır, Şərqin musiqi beşiyidir. 44 günlük Vətən müharibəsində xalqımızın qürurunu, şərəfini bərpa edən, uzun illər işğal altında qalan torpaqlarımızı qəsbkarlardan azad edən, düşməni döyüş meydanında diz çökdürən, şəhidlərimizin qisasını alan, yurd yerlərimizə üçrəngli bayrağımızı sancan şanlı ordumuzun, müzəffər Ali Baş Komandan İlham Əliyevin fədakarlığı sayəsində Şuşa işğalçılardan azad edildi.

## Həyatımıza Günəş yenidən doğub

Qarı düşmən həmişə xəyal edirdi ki, Şuşa əbədi olaraq onların kirli caynaqlarında qalacaq, bu qədim qalanı hər vasitə ilə erməniləşdirəcəklər, saxta, qurama tarix qondarıb dünyaya sırıyacaqlar, həm də öz xislətlərinə uyğun olaraq həmişə boş yerə lovğalanacaqlar. Son iki yüz illik tariximizin səhifələrində olduğu kimi düşmən yenə də yanıldı, azərbaycanlıların torpaq, yurd məhəbbətini, el-oba yanğısını nəzərə almadı, daha doğrusu, heç saya salmadı, bizə yuxarıdan aşağı baxdı, etnik nifrət zəminində bir qondarma erməni mifi düzəltdilər, sərsəm rəvayətlər uydurdular, otuz ilə yaxın aparılan danışıqlarda yalançı və hiyləgər mövqedə dayandılar. Eyforiyaya qapılan, illüziyalarla yaşayan ermənilər keçmiş təmas xəttində yaşayan dinc azərbaycanlıları atəşə tutur, onlara ziyan vurur, uşaqlara güllə atırdılar. Bir sözlə, cəzasızlıq onları qudurtmuşdu, eyni zamanda yaddaş sarıdan əziyyət çəkən haylar unutdular ki, Azərbaycan xalqı işğalla heç zaman barışmayacaq, Qarabağın və Şərqi Zəngəzurun xilaskarı, Qalib Ali Baş Komandan İlham Əliyev öz ordusu ilə düşmənin bütün təxribatlarına son qoyacaq, lovğa düşmən döyüş meydanında məhv ediləcək, başqalarının və himayədarlarının köməyinə arxalanan hayların ordusu darmadağın edilərək yerdən-yerə vurulacaq, güvəndikləri hərbi texnikaları Qənimətlər Parkında nümayiş etdiriləcək. Anlamadılar, inanmadılar və günlərin bir günü "Dəmir Yumruğ"un gücü sayəsində fədakarlıq və həqiqət onların başında şimşək kimi çatladı, işğalçı niyyətləri və kirli əllər kəsildi, torpaqlarımız erməni işğalçılarının murdar tapdağından azad edildi.

Bu qədim şəhər öz tarixinin yeni bir mərhələsinə qədəm qoyub. Mədəniyyət paytaxtımızda tikinti-quruculuq işləri Prezident İlham Əliyevin tapşırığına və tövsiyəsinə uyğun olaraq şəhərin tarixi-memarlıq xüsusiyyətlərinə uyğun aparılır. Dövlətimizin başçısı bildirib ki, Şuşanın Azərbaycan tarixində xüsusi yeri var və Şuşanın bərpası, dirçəlməsi hamımızın işidir və əlbəttə ki, bütün işlər planlı şəkildə aparılmalıdır, Şuşanın tarixi siması saxlanılmalıdır, Şuşaya yad olan hər hansı bir tikiliyə yol vermək olmaz. Bəlkə də keçmiş məcburi köçkünlərdən daha çox Prezidentimiz əzab çəkib, işğalçılarla, Xocalı cəlladları ilə bir stol arxasında oturmaq əziyyətinə qatlaşıb ki, torpaqları sülh yolu ilə geri qaytara bilsin. Düşmən isə zəbt etdiyi torpaqları geri qaytarmaq istəmirdi, əksinə yeni ərazilər, yeni müharibə ilə bizi təhdid edirdi. Otuz il torpaqlarımızı işğal altında saxlayan, azərbaycanlıların mal-mülkünü qarət edən, təbii sərvətlərimizi talançılıqla istismar edən, etnik nifrət zəminində dinc insanları qətlə yetirən, qəddarlıq və amansızlıq nümayiş etdirən düşmən Ermənistanı və onun havadarlarını 44 gün ərzində döyüş meydanında məğlub etmək üçün Qalib Ali Baş Komandan İlham Əliyevin siyasi və diplomatik mübarizəsini qəhrəman ordumuzun bölmələri savaş meydanında tarixi qələbə ilə başa çatdırdı. Bu şanlı zəfərə qədər isə dövlətimizin başçısı tərəfindən bütün xalqımızın iradəsini və arzusunu ifadə edən milli ideyanın həyata keçirilməsi üçün əməli fəaliyyətə başlanıldı. Milli ideyanın birinci mərhələsi işğal altındakı torpaqlarımıza qayıtmaqdan, ədaləti və ərazi bütövlüyümüzü bərpa etməkdən ibarət idi. Vətən, torpaq, yurd, milli qürur, şərəf üçün canından keçən, sinəsini düşmən gülləsinə sipər edən, ağır döyüşlər zamanı yaralı yoldaşını kürəyinə alaraq onu ölümsaçan mərmilərin altından çıxaran, bəzən yaralandığını hiss etdirmədən irəliyə, düşməni məhv etməyə tələsən, üçrəngli, aylı, ulduzlu bayrağımızı göylərə ucaldan oğulların qəhrəmanlığı, şücaəti, qorxmazlığı, hünəri hərb tariximizin şərəfli səhifəsidir, həm də gələcək nəsillər üçün əsl örnəkdir. 44 gün davam edən Vətən müharibəsində işğalçı Ermənistan ordusunu darmadağın edən, döyüş meydanında gülləsi qurtaranda düşməni dişi ilə parçalayan qəhrəman oğulların əziz xatirəsi unudulmur.

Ata vəsiyyətini şərəflə yerinə yetirən, qardaş Türkiyədə Qarabağın Fatehi adına layiq görülən, Qazaxıstan dövlətinin "Altın kıran" - "Qızıl qartal" ali ordeni ilə təltif edilən, siyasi və iqtisadi müstəvidə Azərbaycanı söz sahibinə çevirən İlham Əliyevin Şuşada dediyi "heç buradan getmək istəmirəm" sözləri şanlı Qələbəmizin şərəfini və qiymətini əks etdirir. Şuşada 23 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Yaşayış kompleksində ümumilikdə 450 mənzil istifadəyə veriləcək. Burada 28 birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beşotaqlı mənzil olacaq. Mənzillərin əksəriyyəti keçmiş məcburi köçkünlərin istifadəsinə verilir. Üçmərtəbəli və beşmərtəbəli binalardan ibarət kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılır. Artıq Şuşa şəhərində 204 ailənin, yəni 763 nəfərin daimi məskunlaşması təmin edilib. Şuşalılar deyirlər ki, bərpa-quruculuğa baxıb qürurlanırıq, sevinirik. Ona görə ki, Şuşanın tarixi görkəmi özünə qaytarılır. Buna görə də Prezident İlham Əliyevə, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya minnətdarlığımızı bildiririk. Şuşadakı memarlıq abidələrinin bərpası, şəhərin tarixi görkəminin özünə qaytarılması istiqamətində görülən işlər bütün şuşalılar tərəfindən rəğbətlə qarşılanır. Bir də deyirlər ki, həyatımıza günəş doğub, Şuşalı arzularımız ömrümüzə bəzək olur.

**Salman ALIOĞLU,**
**"Respublika".**